

# Böyük Qayıdış proqramının birinci mərhələsi nəzərdə tutulmuş vaxtdan daha tez tamamlana bilər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam və Xankəndi şəhərlərinə səfər ediblər. Səfər çərçivəsində bir sıra mühüm obyektlərin açılışında, bəzi yeni infrastruktur layihələrinin təməlqoyma mərasimində iştirak ediblər. Həmçinin tikinti və bərpa işlərinin gedişatı ilə tanış olub, müxtəlif obyektlərdə görülən işlərə baxış keçiriblər. Ağdam və Xankəndidə Prezidentin şəxsən iştirak etdiyi tədbirləri analiz etdikdə çox maraqlı mənzərə yaranır. İlk növbədə, Azərbaycanın bütün şəhərlərində dayanıqlı inkişafın təmin edilməsi müxtəlif sahələrdə ciddi uğurlara zəmin yaradır.*





Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışı milli prioritetlərdən biridir və sürətli icrası dövlətin xüsusi diqqət mərkəzindədir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının inkişafı üçün 2025-ci ilin dövlət büdcəsindən 4 milyard manatdan çox vəsaitin ayrılması ilə bağlı qərar qəbul edilib. Bu, dövlətin Böyük Qayıdışın birinci mərhələsinin nəzərdə tutulmuş vaxtdan daha tez tamamlanmasına yönəlik iradəsinin göstəricisidir. Bu mərhələyə uyğun olaraq bərpa və quruculuq işlərinin sürətlə başa çatdırılması, eləcə də təqribən 200 min nəfərə yaxın keçmiş məcburi köçkünün işğaldan azad olunmuş ərazilərə qayıdışı nəzərdə tutulur.

Keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışının təmin olunması, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, genişmiqyaslı infrastrukturun qurulması, yaşayış massivlərinin salınması, iş yerlərinin yaradılması və məşğulluğun təmin edilməsi əsas prioritetlərdəndir. Bütün bunlar həmin bölgələrdə sosial-iqtisadi infrastrukturun sistemli və konseptual şəkildə icra olunmasına xidmət edir. Hazırda bir çox yeni konsepsiyalar tədqiq olunur, o cümlədən "ağıllı kənd", "ağıllı şəhər" və digər müasir yanaşmalar çərçivəsində "yaşıl zona"ların yaradılması istiqamətində işlər aparılır. Cənab Prezident və birinci xanımın Ağdam və Xankəndiyə səfəri zamanı tanış olduqları obyektlərə nəzər yetirdikdə, bir neçə vacib istiqamətin önplana çıxdığını görmək mümkündür. Qeyd etmək lazımdır ki, bu yaşayış kompleksləri keçmiş məcburi köçkünlərin məskunlaşması üçün nəzərdə tutulub və burada aparılan işlər onların rahat və təhlükəsiz şəkildə yerləşdirilməsinə xidmət edir.

Digər mühüm məqam isə keçmiş məcburi köçkünlərin qayıdacaqları kəndlərdə aparılan bərpa-quruculuq işləridir. Məsələn, Xıdırlı kəndində həyata keçirilən genişmiqyaslı abadlıq və tikinti işləri xüsusi diqqət çəkir. Eyni zamanda "Ağdam Residence" yaşayış kompleksinin və digər infrastrukturların inkişafı keçmiş məcburi köçkünlərin effektiv şəkildə məskunlaşdırılmasına xidmət edir. Bundan başqa, cənab Prezident Ağdam məscidinin bərpa işləri ilə tanış olub və İmarət stadionunun təməlqoyma mərasimində iştirak edib. Bütün bu layihələr Böyük Qayıdış proqramının sistemli və ardıcıl icrasını təmin edən mühüm addımlardır.

Cənab Prezident və birinci xanım Mehriban Əliyeva Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olublar. Xankəndidə Zəfər Meydanında Konqres Mərkəzinin tikintisi davam edir. Bütün bu layihələr birbaşa olaraq həmin ərazilərə köçəcək insanların gələcək sosial-mədəni inkişafını, sağlam həyat tərzini təmin edəcək.

Söhbət təkcə insanların yaşayış yerləri ilə təmin olunmasından getmir, eyni zamanda sosial-mədəni, sağlamlıq və digər infrastruktur layihələrinə də xüsusi diqqət yetirilir. Bu ərazilərdə keçmiş məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdıracaq obyektlərin tikintisi də geniş şəkildə icra olunur. Bu kontekstdə Xankəndidə inşa edilən 1 nömrəli körpələr evi-uşaq bağçası da xüsusi əhəmiyyət kəsb edir. Bu obyekt keçmiş məcburi köçkünlərin övladlarının təhsil və sosial inkişafını təmin edəcək. Bundan əlavə, Qarabağ Universitetinin istifadəyə verilməsi və təlim-tədris sahəsində həyata keçirilən genişmiqyaslı işlər Böyük Qayıdış konsepsiyasının əsas elementidir. Prezidentin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirakı da bu yanaşmanın bir hissəsidir. Prezidentin Ağdam Sənaye Parkında yeni zavodların açılışında iştirakı da iqtisadi inkişafın ön planda olduğunu təsdiqləyir. Bundan başqa, ölkə başçısı Xankəndidə fəaliyyət göstərən Azərbaycan-Özbəkistan Birgə Müəssisəsində və tikiş fabrikində görülən işlərlə tanış olub. Bu, iqtisadi və istehsal sektorlarının inkişafına verilən önəmin göstəricisidir.

Səfər çərçivəsində diqqətçəkən digər mühüm məqam Prezidentin Ağdam "Hilton Garden Inn" otelində aparılan tikinti işləri və Əsgəran qalasının bərpa konsepsiyası ilə tanış olmasıdır. Bu, işğaldan azad olunmuş ərazilərdə mədəni irsin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Əsgəran qala kompleksi ilə bağlı konseptual layihələr bu tarixi irsin bərpasını və gələcək nəsillərə çatdırılmasını təmin edəcək vacib təşəbbüslər sırasındadır. Eyni zamanda bölgədə hotel infrastrukturunun inkişafı da diqqət mərkəzindədir. Bu sahənin genişləndirilməsi olduqca vacibdir, çünki turizmin inkişafı baxımından belə layihələrə böyük ehtiyac var.



Əsgəran qalasının bərpası, muzey-məqbərə komplekslərinin qurulması, Ağdam Cümə məscidinin təmiri və digər bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Bütün bu layihələr bölgənin turizm potensialının artırılmasına xidmət edir. Əsgəran qalası təkcə tarixi abidə deyil, həm də Azərbaycan xalqının mədəni və memarlıq irsinin nadir nümunələrindəndir. XVIII əsrdə inşa edilmiş qala şəhərsalma sənətinin bariz nümunəsi kimi dəyərləndirilir və turizmin inkişafına töhfə verə biləcək önəmli obyektlərdən biridir. Turizmin inkişafı ilə bağlı digər vacib məqam isə tarixi və memarlıq abidələrinin qorunması, hotel şəbəkələrinin genişləndirilməsi və turistlər üçün lazımi infrastrukturun yaradılmasıdır. Belə ki, yeni tikilən və bərpaolunan turizm obyektləri həm yerli, həm də xarici turistlərin bölgəyə marağını artıracaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bölgələrə səfərləri çərçivəsində həyata keçirilən layihələr məhz bu ardıcıl və məqsədyönlü yanaşmanın nəticəsidir. İstər təməlqoyma mərasimləri, istər bərpa və yenidənqurma işləri, istərsə də açılışlar bütün sahələrin bir-biri ilə əlaqəli şəkildə inkişaf etdirildiyini göstərir.

Böyük Qayıdış proqramının əsas istiqamətləri keçmiş məcburi köçkünlərin təhlükəsiz və dayanıqlı şəkildə qayıdışı, məskunlaşması, məşğulluğun təmin edilməsi, sosial rifah məsələləri, təhsil və təlim-tədris infrastrukturlarının qurulması, sənaye və istehsalat sahələrinin yaradılması, turizmin inkişafı üçün vacib infrastrukturun formalaşdırılması, hotelçilik sektorunun genişləndirilməsi və mədəni irsin qorunması kimi vahid strateji xəttin tərkib hissəsidir. Bütün bunlar genişmiqyaslı və sistemli işlərin həyata keçirildiyini göstərir. Eyni zamanda müasir dövrün tələblərinə cavab verən obyektlərin inşası diqqət çəkir. Burada rəqəmsal texnologiyaların tətbiqi, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, "yaşıl enerji"yə keçidin geniş təşviqi, bərpaolunan enerjidən istifadə və ekoloji cəhətdən dayanıqlı "yaşıl zona"ların yaradılması kimi mühüm aspektlər dövlətin fundamental yanaşmasının əks etdirir.

Dövlətimizin bu uğurları bizi qürurlandırır. Hər bir Azərbaycan vətəndaşı bu nailiyyətləri böyük sevinc hissi ilə izləyir və Prezident İlham Əliyevin apardığı siyasətə dəstəyini ifadə edir. Bu prosesə tutduğu vəzifədən, fəaliyyət sahəsindən asılı olmayaraq hər kəsin öz töhfəsini verməsi vacibdir. Necə ki, xalqımız digər taleyüklü məsələlərdə birlik və həmrəylik nümayiş etdirib, eləcə də işğaldan azad olunmuş ərazilərdə görülən işlərə münasibətdə də monolit birliyini ortaya qoyur. Bu həmrəylik və birlik Qarabağın dirçəliş prosesində əldə edilən hər bir uğurda daha aydın şəkildə özünü göstərir.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**